AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

№2(10)
2012

MALİYYƏ SABİTLİYİ İCMALI

II Rüb

AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

№ 2(10)
2012

MALİYYƏ SABİTLİYİ İCMALI

II Rüb

MÜNDƏRİCAT

GİRİŞ 4

I. Bank sektorunun fəaliyyət göstərdiyi mühit 5

1.1. Qlobal maliyyə sabitliyi üzrə son meyillər 5

Haşiyə 1. BVF: makroprudensial siyasət modelləri *8*

1.2. Azərbaycan iqtisadiyyatında vəziyyət 9

II. Bank sisteminin inkişafı 11

2.1. Bank sisteminin əsas göstəricilərinin dinamikası 11

Haşiyə 2. Maliyyə inkluzivliyi *12*

2.2. Bank sisteminin öhdəlikləri 11

2.3. Bank sisteminin aktivləri 14

2.4. Bank sektorunun fəaliyyətinin maliyyə nəticələri 16

Haşiyə 3. Faiz dərəcəsi riskinin idarə edilməsinin əsas prinsipləri *17*

2.5. Bank sektorunun kapitalı 18

Haşiyə 4. İnkişaf etmiş ölkələrin bank sistemində leverec səviyyəsinin azaldılması *19*

III. Bank sistemində risklər 21

Haşiyə 5. Əmlak bazarında qiymətlər və maliyyə sabitliyi *22*

Haşiyə 6. Makro stress-testləşdirmədə olan son trendlər *23*

IV. Ödəniş sistemləri 24

İstifadə olunmuş qrafik və cədvəllər 26

Abbreviaturalar

AMB	–	Azərbaycan Respublikasının Mərkəzi Bankı
AİF	–	Azərbaycan Respublikası Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu
AZİPS	–	Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi
BVF	–	Beynəlxalq Valyuta Fondu
DQİ	–	Dövlət Qısamüddətli İstiqrazları
DSK	–	Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
HHİ	–	Herfindal-Hirşman İndeksi
XÖHKS	–	Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi
İEOÖ	–	İnkişaf Etməkdə Olan Ölkələr
İEÖ	–	İnkişaf Etmiş Ölkələr
MN	–	Azərbaycan Respublikası Maliyyə Nazirliyi
REM	–	Real Effektiv Məzənnə
ROA	–	Aktivlərin Gəlirliliyi
ROE	–	Kapitalın Gəlirliliyi
ÜDM	–	Ümumi Daxili Məhsul

GİRİŞ

Cari ilin ilk altı ayı ərzində dünya iqtisadiyyatında artım templərinin səngiməsi, Avropada borc böhranı, maliyyə bazarlarında qeyri-müəyyənliklərin artması, qlobal risklərin artması şəraitində Azərbaycan bank sistemi öz dayanıqlığını qoruyub saxlamışdır. Bank aktivlərinin keyfiyyətinin, likvidlik və rentabellik göstəricilərinin nisbi yaxşılaşması müşahidə olunmuş, bank sektoru üzrə kapital adekvatlığı yüksək səviyyədə olmuşdur. Bank sisteminin institusional inkişafı, iqtisadiyyatın kreditləşdirilməsi davam etmiş, əmanətlərin müddət və valyuta strukturunda müsbət meyillər müşahidə olunmuşdur.

Əlverişli makroiqtisadi dinamikası, bank sektorunun dayanıqlığı beynəlxalq reytinq agentliklərinin Azərbaycan bankları ilə bağlı proqnozlarının yaxşılaşdırılmasına şərait yaratmışdır.

I. BANK SEKTORUNUN FƏALİYYƏT GÖSTƏRDİYİ MÜHİT

1.1. Qlobal maliyyə sabitliyi üzrə son meyillər

Dünya iqtisadiyyatının kövrək artımı və Avrozonada borc böhranı şəraitində qlobal maliyyə sabitliyi üçün risklər artmışdır. Tənzimləmə orqanları üçün qlobal iqtisadi artımı canlandırmaqla yanaşı bank sektorunda sağlamlaşdırma islahatlarının davam etdirilməsi başlıca çağırışlardan biri olaraq qalmışdır.

Ayrı-ayrı dövlətlərin və beynəlxalq təşkilatların iqtisadi aktivliyin canlandırılması istiqamətində əlaqələndirilmiş tədbirləri nəticəsində cari ilin I rübündə **qlobal iqtisadi artım** gözlənildiyindən yüksək olsa da, II rübdə buna əks proseslər müşahidə edilmişdir. Nəticədə, bir çox ölkələrdə yeni iş yerlərinin yaradılması prosesi ləngimişdir.

Cari ilin iyun ayında sənayedə qlobal işgüzar aktivlik indeksi (İAİ) 2011-ci ilin noyabr ayından etibarən ilk dəfə resessiya zonasına daxil olmuşdur. İyun ayında keçirilmiş sorğuya əsasən 17 ölkədə İAİ azalmış və yalnız 9 ölkədə artmışdır.

Qrafik 1.1. Sənaye istehsalı, %-lə



Mənbə: Dünya Bankı

İspaniyada sorğuda iştirak edən sahibkarların gözləntiləri Yunanıstan səviyyəsinə enmişdir.

Qrafik 1.2. İyun ayında İAİ və ilin əvvəliindən dəyişmə



Mənbə:Markit Economics, Haver Analytics

Hesabat dövründə fiskal konsolidasiya siyasətinin həyata keçirilməsinə baxmayaraq ABŞ-da iqtisadiyyatın bərpası davam etmişdir. Qiymətləndirmələrə görə, nəzərdə tutulmuş büdcə konsolidasiyası ÜDM-in artım tempini 2012-ci ildə 0,5 faiz bəndi, 2013-cü ildə isə 3,9 faiz bəndi səngitmək qabiliyyətinə malikdir.

Yarımilliyin sonuna doğru neftin dünya qiymətinin azalması ABŞ-ın ticarət balansının kəsirini azaltsa da, ümumilikdə iqtisadi aktivlikdə, xüsusilə də sənaye və pərakəndə ticarətdə səngimə qeydə alınmış, tikintidə isə stabilləşmə müşahidə olunmuşdur. Hazırda yaşayış tikintisi sektoruna investisiyalar 2006-cı ilin pik səviyyəsindən 61% az, lakin postböhran dövrünün minimumdan 17% yüksəkdir.

Qrafik 1.3. ABŞ-da sənaye istehsalı və işsizliyin dinamikası, %-lə



Mənbə: Dünya Bankı

İqtisadi aktivliyin stabilləşməsinə baxmayaraq ABŞ-da işsizliyin əhəmiyyətli azalması baş vermir. Yeni yaradılan iş yerlərinin sayı bazar gözləntilərindən azdır. Nəticədə işsizlik səviyyəsi 8,2% səviyyəsində qalır.

Hesabat dövründə **Avrozona**da artım sıfır səviyyəsinə yaxın olmuşdur ki, bu da əsasən zonanın qabaqcıl ölkələrində artım tempinin çox aşağı, periferiyada isə mənfi olması ilə əlaqədardır. Sənaye istehsalı ilə yanaşı pərakəndə ticarət dövriyyəsində də neqativ tendensiyalar davam etmişdir. May ayında illik əsasda Avrozonada sənaye istehsalı -2,8%, pərakəndə ticarət dövriyyəsi isə -1,7% azalmışdır. Bununla yanaşı tikinti sektorunda müşahidə olunan azalma da sürətlənmişdir.

Qrafik 1.4. Avrozonada sənaye istehsalı və pərakəndə ticarət dövriyyəsinin dinamikası, %-lə



Mənbə: Eurostat

İqtisadi göstəricilərin pisləşməsinin və neqativ gözləntilərin nəticəsi olaraq, Avrozonada işsizlik artmaqda davam etmişdir. İyun ayında işsizlik səviyyəsi postböhran dövrünün maksimal səviyyəsinə - 11,2%-ə çatmışdır. İşsizliyin ümumi səviyyəsinin artması ilə yanaşı, onun gənclər arasında geniş yayılması xüsusilə nəzərə çarpır. Gənclər arasında işsizlik Almaniyada 8% ətrafında olsa da, İspaniya və Yunanıstanda 52%-i ötmüşdür.

İnflyasiya isə Avrozonada hələ ki, məqbul səviyyədədir. Qlobal enerji daşıyıcıları bazarlarının konyunkturası ilin sonunadək inflyasiyanın 2% səviyyəsində qalacağı ehtimalını artırır ki, bu da Avropa Mərkəzi Bankına yumşaq monetar siyasəti davam etməyə imkan verəcəkdir. Bununla belə, kənd təsərrüfatı mallarının qiymətlərinin artması bu imkanların reallaşmasına təhlükə yaradır.

Qabaqcıl ölkələrdə olduğu kimi hesabat dövründə inkişaf etməkdə olan ölkələrdə də iqtisadi aktivliyin səngiməsi davam etmişdir. İqtisadi aktivliyin azalmasının səbəbləri ayrı-ayrı ölkələrdə fərqli olsa da ixracın və investisiyaların azalması bütün **inkişaf etməkdə olan ölkələrdə** mənfi təsir edir.

BVF-nun son hesabatında qlobal iqtisadi artım 2012-ci ildə 3,5%, 2013-cü ildə isə 3,9% səviyyəsində proqnozlaşdırılır. Qlobal artıma dair **dəqiqləşdirilmiş proqnozlar** ilkin proqnozlardan müvafiq olaraq 0,1% və 0,2% aşağıdır. ABŞ-da iqtisadi artım cari ildə +2,0%, 2013-cü ildə +2,3% səviyyəsində proqnozlaşdırılır. İnkişaf etməkdə olan ölkələr üzrə də artım proqnozları azaldılmışdır. Belə ki, 2012-ci ildə Çində ÜDM-im artım tempi gözlənildiyi kimi 8,2% deyil 8%, Hindistanda 6,1% (ilkin proqnoz 6,9%), Braziliyada isə 2,5% (ilkin proqnoz 3,0%) səviyyəsində ehtimal edilir.

Hesabat dövründə **dünya əmtəə bazarlarında** qiymətlərin aşağı düşməsi (neft, metal və kənd təsərrüfatı məhsulları müvafiq olaraq 25%, 15% və 2%) müşahidə edilmişdir ki, bu da qlobal tələbin azalmasını, İrana tətbiq olunan embarqonu, Avrozonadakı borc böhranı barədə qeyri-müəyyənliklərin artmasını əks etdirir. Dünya Bankının hesablamalarına görə

neftin qiymətinin 20% düşməsi neft ixrac edən ölkələrdə büdcə kəsirinin ÜDM-ə nisbətini 1.2% bəndi artırır, ÜDM-i isə 1.3% bəndi aşağı salır.

Qrafik 1.5. Əmtəə bazarlarının dinamikası



Mənbə: Dünya Bankı

Qlobal iqtisadiyyatda baş verənlər, iqtisadi aktivliklə bağlı qeyri-müəyyənliklər **maliyyə bazarlarına** da təsir edir. Dövr ərzində Avropa Birliyinin periferiya ölkələri maliyyə bazarında davamlı olaraq artan stressin episentrində olmuşlar. Bu gərginliyin əsas səbəbləri Yunanıstanda baş verən maliyyə və siyasi böhran, İspaniyadakı bank sistemi problemləri olmuşdur. Maliyyə bazarlarındakı volatilliyə səbəb olan problemlərə Avrozona ölkələrindən kapital qaçışı, suveren borc kağızları üzrə faizlərin yüksəlməsi, bank sektorunun maliyyələşmə problemləri, periferiya ölkələrində mərkəzi bankların öhdəliklərinin şişməsi, bank aktivlərinin keyfiyyətinin pisləşməsi, özəl sektorda kredit qoyuluşlarının azalması və s. aiddir.

Qrafik 1.6. 10 illik dövlət borc öhdəliklərinin gəlirliliyi, %-lə



Mənbə: Bloomberg, Thomson Reuters

Həm fiskal perspektiv və federal borc tavanı, həm də Avrozonadan gələn nikbinlikdən uzaq gözləntilər ABŞ maliyyə bazarında da qeyri-müəyyənliyi artırmış, orta və uzunmüddətli rentabelliyi aşağı salmışdır. Bir çox inkişaf etməkdə olan ölkələrin maliyyə bazarları da (Çin, Braziliya, Hindistan) azalan investor inamından və zəif artım gözləntilərindən əziyyət çəkir. Bu, sadəcə səhm qiymətlərinin ucuzlaşmasına deyil, həm də kapital qaçışına və məzənnə devalvasiyasına səbəb olur. Bütün bunların nəticəsidir ki, 2012-ci ilin I yarımilliyi ərzində həm qabaqcıl ölkələr, həm də inkişaf etməkdə olan ölkələr üzrə fond indeksləri azalma meyilli olmuşdur.

Qrafik 1.7. Fond indekslərinin dinamikası, %-lə



Mənbə: Dünya Bankı

Qlobal iqtisadiyyatda və real sektorda gedən proseslərlə əlaqədar olaraq **maliyyə sabitliyi riskləri** əhəmiyyətli artmışdır. Təsadüfi deyildir ki, Moody's agentliyi Avropanın 15-dən çox kommersiya bankının kredit reytinqini aşağı salmışdır. Kredit reytinqinin aşağı salınması həmin bankların uzunmüddətli gəlirliliyinin azalmasını əks etdirir.

2012-ci ilin əvvəllərindən Avropa bankları fond çatışmazlığı və bazardakı təzyiqlərdən dolayı aktivlərini azaltmağa məcbur olmuşlar. "Deleverecing" prosesi də öz növbəsində real sektor üçün problemə çevrilmişdir. Çünki borc vəsaitlərinin bahalaşması riski artmaqdadır. İspaniya bank sisteminin rekapitalizasiyaya ehtiyacı səhm bazarlarında sərt enişə səbəb olmuşdur.

Haşiyə 1. BVF: makroprudensial siyasət modelləri

2011-ci ildə BVF tərəfindən 50 ölkə üzrə aparılan sorğular nəticəsində makroprudensial siyasət modelləri hazırlanmışdır. Modellər 4 əsas xüsusiyyətə görə fərqləndirilir:

- mərkəzi bank və nəzarət orqanları arasında inteqrasiya səviyyəsi. Bu, tam, qismən və heç olmaya bilər.
- makroprudensial siyasət mandatına sahiblik. Bu mandata mərkəzi bank, müstəqil qurum və ya müxtəlif agentliklər sahib ola bilərlər.
- maliyyə nazirliklərinin rolu. Maliyyə Nazirliyinin rolu aktiv (siyasət qərarlarının verilməsində və koordinasiya komitələrində aparıcı rola malikdir), passiv (komitələrdə iştirak edir, lakin xüsusi bir rol oynamır) və ya heç yoxdur.
- siyasət qərarlarının institusional bölgüsü və alətlərə nəzarət. Makroprudensial siyasət məsuliyyəti bölüşdürülürsə fərqli komitələr müxtəlif fikirləri razılaşdıra bilərlər, siyasəti və tədbirləri koordinasiya edə bilərlər.

Qeyd edilən xüsusiyyətlər nəzərə alınmaqla qruplaşdırılan 7 model aşağıdakı cədvəldə əks edilmişdir.

BVF-nun hesabatında modellərin mənfi və müsbət tərəfləri təhlil edilir və qeyd edilir ki, modelləri fərqləndirən əsas xüsusiyyət məsuliyyətin mərkəzləşmiş və qeyri mərkəzləşmiş olmasıdır.

Model 1, 2 və 4 mərkəzi banka əhəmiyyətli səlahiyyət verir. Bunun müsbət tərəfi mərkəzi banklarda artıq formalaşmış, sistemli və makro perspektivli analitik çərçivənin mövcudluğudur. Digər müsbət tərəf odur ki, xarici koordinasiya zəif olan zaman bütün məsuliyyətin və qərarların mərkəzi bank tərəfindən verilməsi asanlaşır. Bu prosesə mərkəzi bankın müstəqilliyi də öz təsirini göstərir. Mənfi tərəfi ondan ibarətdir ki, mərkəzi bankın makroprudensial siyasətinin pul siyasəti ilə uzlaşmama problemi ola bilər və bu da son nəticədə mərkəzi banka olan etimadın azalmasına səbəb ola bilər.

Model 5 və 6 effektiv koordinasiya tələb edir. Əgər bu koordinasiya mövcuddursa onda öhdəliklər qurumlar arasında rahat bölüşdürülə bilər. Burada risk koordinasiyanın qeyri-effektivliyindən qaynaqlana bilər. Bu halda makroprudensial siyasət alətlərinin boşluğu yarana bilər.

Makroprudensial siyasət modelləri

	MODEL1	MODEL2	MODEL3	MODEL4	MODEL5	MODEL6	MODEL7
Mərkəzi bankın və nəzarət qurumlarının institusional inteqrasiya səviyyəsi	Tam (mərkəzi bankda)	Qismən	Qismən	Qismən	Qismən	Yox (qismən)	Yox
Makroprudensial siyasəti müəyyən edən orqan	Mərkəzi bank	Mərkəzi bankla əlaqəli komitə	Müstəqil komitə	Mərkəzi bank	Müxtəlif agentliklər	Müxtəlif agentliklər	Müxtəlif agentliklər
Maliyyə Nazirliyinin/ xəzinənin/dövlətin rolu	Yox	Passiv	Aktiv	Yox	Passiv	Aktiv	Yox
Siyasət qərarlarının bölüşdürülməsi və alətlərə nəzarət	Yox	Bəzi sahələrdə	Hə	Bəzi sahələrdə	Yox	Yox	Yox
Siyasəti koordinasiya edən xüsusi qurumların olması	Yox	Yox	Yox	Yox	Hə	Hə	Yox
Modellərə uyğun ölkələr	Çexiya İrlandiya Sinqapur	Malaziya Rumıniya Tailand İngiltərə	Braziliya Fransa ABŞ	Belçika Niderland Serbiya	Avstraliya	Kanada,Çili Honq-Konq Koreya Livan Meksika	İslandiya Peru İsveçrə

Mənbə: Sveriges Riksbank Economic Review 2012:1

Beynəlxalq maliyyə təşkilatlarının tövsiyələrinə əsasən Avrozonada böhranın cilovlanması məqsədilə ölkələr büdcə konsolidasiyası, əmək haqqı və qiymət korreksiyası, struktur islahatları ilə yanaşı bankların yenidən kapitalizasiyasını da aparmalıdırlar.

Cari ilin 28-29 iyun tarixlərində Brüsseldə Avropa Birliyinin sammiti keçirilmişdir. Sammitdə böhranın aradan qaldırılması üçün yeni sabitlik fondunun yaradılması, banklar üzərində vahid nəzarət orqanın təsis edilməsi, "Tobin" vergisinin tətbiqi, Avrozonada stabilizasiya və inteqrasiyanın dəstəklənməsi üzrə tədbirlərin görülməsi qərara alınmışdır. Qəbul olunan qərarların səmərəliliyinin artırılması məqsədilə aşağıdakılar nəzərdə tutulur:

- Sağlam bankların yenidən kapitallaşması və restrukturizasiyası. Bu məqsədlə Avropa Sabitlik Mexanizminin vəsaitlərindən istifadə nəzərdə tutulur.
- Müddət üzrə əlaqələndirilmiş büdcə konsolidasiyasının və geniş miqyaslı struktur islahatlarının aparılması.
- İqtisadi artımı və maliyyə sabitliyini dəstəkləyən adaptiv monetar və likvidlik siyasətlərin həyata keçirilməsi.
- Suveren borc öhdəlikləri bazarında maliyyəşmə şərtlərinin stabilləşdirilməsi məqsədilə Avrozona səviyyəsində tədbirlərin görülməsi.

Vahid bank nəzarəti orqanının təsis edilməsi maliyyə sisteminin inteqrasiyasının möhkəmləndirilməsinin təməl ideyası kimi nəzərdən keçirilmişdir. Bununla belə, maliyyə infrastrukturunun digər elementlərinin - əmanətlərin vahid Avropa sığortalanması sisteminin, habelə bankların sanasiyası mexanizminin formalaşdırılması da zəruri hesab edilmişdir.

ABŞ-da isə maliyyə sisteminin uzunmüddətli dayanıqlığı əsasən burada vergi-büdcə siyasətində ciddi islahatların davam etdirilməsindən asılı olacaqdır.

İnkişaf etməkdə olan ölkələr qarşısında ikili vəzifə durur: iqtisadiyyatın inkişaf etmiş ölkələrdən qaynaqlanan mənfi təsirlərindən qorunması və özlərinin milli iqtisadiyyatlarından irəli gələn kövrəklik amillərinin neytrallaşdırılması. Bu ölkələrdə bank aktivlərinin və kreditləşmənin sürətli artımı (hərarətlənmə) aktivlərin gələcəkdə pisləşməsi riskini aktuallaşdırır. Digər tərəfdən, daxili iqtisadi artımın səngiməsi bankların mənfəətliliyinə təzyiqləri və Braziliya, Çin, Hindistan kimi ölkələrdə maliyyə sabitliyinin pozulması risklərini yüksəldir. Qeyd olunanları nəzərə alaraq, inkişaf etməkdə olan ölkələr milli maliyyə sistemlərinin dayanıqlılığının artırılmasına xüsusi diqqət yetirməlidirlər. Mürəkkəb xarici iqtisadi şəraitə cavab olaraq burada makroiqtisadi və makroprudensial siyasət alətlərinin əlaqəli tətbiqi zəruridir.

1.2. Azərbaycan iqtisadiyyatında vəziyyət

2012-ci ilin 6 ayında bank sistemi ölkənin xarici mövqeyinin gücləndirilməsi və qeyri-neft sektorunda iqtisadi aktivliyin yüksəlməsi, makroiqtisadi sabitliyin qorunması şəraitində fəaliyyət göstərmişdir.

Dövr ərzində qlobal iqtisadiyyatda kövrək də olsa, artımın davam etməsi və yüksək enerji qiymətləri şəraitində ölkənin xarici mövqeyi əlverişli olaraq qalmışdır. Dövlət Gömrük Komitəsinin (DGK) məlumatlarına əsasən, 2012-ci ilin 6 ayında xarici ticarət dövriyyəsi 17.2 mlrd. dollar təşkil etmişdir ki, bunun da 12.7 mlrd. dolları ixracın, 4.5 mlrd. dolları isə idxalın payına düşmüşdür. Cari ilin yanvar-iyun aylarında xarici ticarət balansının profisiti 8.2 mlrd. dollar olmuşdur.

İxracdan əlavə, xaricdən pul baratlarının və kapital axınlarının dinamikası da ölkəyə valyuta daxilolmalarına artırıcı təsir göstərmişdir. Ən ilkin məlumatlara görə, 6 ayda ölkəyə daxil olan pul baratlarının həcmi 791 mln. dollar təşkil etmişdir. Ölkə iqtisadiyyatına qoyulmuş xarici investisiyaların həcmi isə, DSK-nın məlumatına görə, I yarımillikdə 5.2% artaraq 1.7 mlrd. dollara çatmışdır.

Ölkənin xarici mövqeyinin yaxşılaşması valyuta ehtiyatlarının artımından da görünür. 2012-ci ilin yanvar-iyun aylarında ölkənin strateji valyuta ehtiyatları 9% artaraq 44 mlrd. dolları ötmüşdür ki, bu da təqribən 3 illik mal və xidmətlərin idxalına kifayət edir. AMB-nin valyuta ehtiyatları isə 5% artaraq 11 mlrd. ABŞ dollarından çox olmuşdur ki, bu da təqribən bir illik mal və xidmət idxalını maliyyələşdirməyə kifayətdir.

Hesabat dövründə məcmu tələbin komponentləri olan son istehlak xərcləri, investisiyalar iqtisadi artıma müsbət təsir göstərmişdir. Ötən dövrdə büdcə xərclərinin, əsasən də investisiya xərclərinin yüksək artımı məcmu tələbə təsir göstərən mühüm amil olmuşdur.

2012-ci ilin yanvar-iyun aylarında ÜDM-in artımı qeyri-neft sektorundakı aktivlik hesabına baş vermişdir. Yaradılan əlavə dəyərin 2/3 hissəsi məhsul istehsalı sahələrinin, 1/3 hissəsi isə xidmət sahələrinin payına düşmüşdür.

Qrafik 1.8. Yanvar-iyun aylarında iqtisadi artım, %-lə



Mənbə: DGK

Cari ilin I yarımilliyində ÜDM real ifadədə 1.5% artmış və nominal olaraq 26 mlrd. manata çatmışdır. Qeyri-neft sektorunda artım 11.3% təşkil etmişdir. ÜDM-in yarısı qeyri-neft sektorunun payına düşmüş və iqtisadiyyatın bu sektoru ümumi artıma 5.5% bəndi artırıcı töhfə vermişdir.

2012-ci ilin 6 ayında adambaşına düşən nominal pul gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 12.7% artmış, son istehlak xərcləri isə nominal ifadədə 4.4% artaraq 9.5 mlrd. manat və ya ÜDM-in 37%-nə bərabər olmuşdur. Hesabat dövründə bütün mənbələrdən iqtisadiyyata investisiya qoyuluşu 29.6% artaraq ÜDM-in 22.9%-nə çatmış, bunun 71.4%-i qeyri-neft sektorunun payına düşmüşdür. O cümlədən əsas kapitala yönəldilmiş vəsaitin 77.9%-ni daxili, 22.1%-ni isə xarici mənbələrdən yönəldilmiş vəsaitlər təşkil etmişdir.

Hesabat dövründə məcmu tələbin canlanması şəraitində inflyasiyanın birrəqəmli səviyyədə saxlanılması mühüm vəzifə olaraq qalmışdır. 2012-ci ilin 6 ayında orta illik inflyasiya 2.2% təşkil etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə nəzərə çarpacaq dərəcədə aşağıdır. Dövr ərzində manatın məzənnəsinin sabitliyi qorunmuşdur.

Valyuta bazarında məzənnənin əhəmiyyətli möhkəmlənməsinin qarşısını almaq və bununla da qeyri-neft sektorunun rəqabət qabiliyyətinə neqativ təsirləri neytrallaşdırmaq üçün Mərkəzi Bank tərəfindən I yarımildə 639,4 mln. dollar həcmində valyuta sterilizasiyası həyata keçirilmişdir. Nəticədə, dövr ərzində manatın ABŞ dollarına qarşı məzənnəsi mülayim templə, cəmi 0.1% möhkəmlənmişdir.

Cari ilin ötən dövründə pul siyasəti alətləri üzrə qəbul edilmiş qərarlar qiymət sabitliyinin qorunmasına yönəldilmişdir. Hesabat dövründə pul bazası 4.2%, pul kütləsi isə 6.9% artmışdır.

II. BANK SİSTEMİNİN İNKİŞAFI

2.1. Bank sistemin əsas göstəricilərinin dinamikası

2012-ci ilin 6 ayında bank sektoru inkişaf dinamikasını qoruyub saxlamış, maliyyə vasitəçiliyi funksiyasını daha da dərinləşdirmişdir.

2012-ci ilin I yarımilliyinin sonuna bank sektorunun aktivləri 14 778,8 mln. manat təşkil etmişdir. İlin əvvəli ilə müqayisədə bank aktivləri 832 mln. manat və ya 6,0% artmışdır (son bir ildə artım 12,5% olmuşdur). 2012-ci ilin yanvar-iyun ayları ərzində kreditlərin həcmi 8,8% artaraq dövrün sonuna 10 556,7 mln. manat olmuşdur ki, bu da bank aktivlərinin 71,4%-ni təşkil etmişdir.

Bankların depozit bazası (maliyyə və qeyri-maliyyə sektorundan cəlb olunmuş vəsaitlər) 2,7% artmışdır. O cümlədən fiziki şəxslərin əmanətləri 6,1% artaraq 4372,6 mln. manata çatmışdır.

Cari ilin iyun ayının sonuna fəaliyyətdə olan bankların sayı 44 olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 yeni bank filialı (cəmi 672 filial) və 8 yeni bank şöbəsi açılmışdır (cəmi 162 bank şöbəsi). Xarici kapitallı bankların sayı 1 iyul 2012-ci il tarixinə 23 olmuşdur.

Qeyri-bank kredit təşkilatlarının sayı 125-dən (1 yanvar 2012) 131-dək artmışdır. O cümlədən, dövrün sonuna kredit ittifaqlarının sayı 103, beynəlxalq humanitar təşkilatlar tərəfindən maliyyələşdirilən kredit təşkilatlarının sayı 27 olmuşdur. Onların filiallarının sayı isə ilin əvvəlindən artaraq (1 yanvar 2012-ci il tarixinə - 74) 1 iyul 2012-ci il tarixinə 110-a çatmışdır.

Əhaliyə, xüsusilə də regionlarda yaşayan sakinlərə maliyyə xidmətlərini göstərən "AZƏRPOÇT" Məhdud Məsuliyyətli Cəmiyyətinin 63 filialı yarım il ərzində uğurla fəaliyyət göstərmişdir. 1 iyul 2012-ci il tarixinə olan məlumata görə, "AZƏRPOÇT" MMC-nin şöbələrinin sayı 913-ə (ötən ilin müvafiq dövründə 748) çatmışdır.

2.2. Bank sisteminin öhdəlikləri

2012-ci ilin I yarısı ərzində bank sisteminin resurs bazası əsasən daxili bazardan cəlb edilmiş vəsaitlər hesabına artmışdır.

2012-ci ilin yanvar-iyun ayları ərzində bankların öhdəlikləri 6,1% artaraq (727,3 mln. manat) dövrün sonuna 12 555,6 mln. manat təşkil etmişdir. O cümlədən, dövr ərzində bankların

Cədvəl 2.1. Bank sisteminin əsas göstəricilərinin artım tempi, %-lə

	2009	2010	2011	2012/6 ay
Aktivlər	13.6	13.9	7.3	6.0
Kreditlər	17.3	9.0	8.1	8.8
Hüquqi şəxslərin depozitləri	-18.8	4.3	16.1	0.6
Əhalinin əmanətləri	22.6	29.8	36.0	6.1
Məcmu kapital	17.9	7.8	12.7	10.5

Mənbə: AMB

Haşiyə 2. Maliyyə inkluzivliyi

Maliyyə inkluzivliyi bütün əhali təbəqələrinin maliyyə xidmətlərinə çıxışı və müvafiq xidmətlərin məqbul qiymətlərlə çatdırılmasını nəzərdə tutur. Dünya ölkələrinin təcrübəsi maliyyə xidmətlərinə çıxışda sıxıntısı olan əhali təbəqəsinin əsasən yoxsullar olduğunu göstərir. Yoxsul əhalinin maliyyəyə çıxış imkanlarının aşağı olması nəticədə iqtisadi artımın da inkluzivliyini azaldır. Bu baxımdan əhalinin maliyyə inkluzivliyi səviyyəsinin artırılması onların təhsil, səhiyyə, investisiya xərclərinin maliyyələşməsini artıra bilər ki, bu da yekunda iqtisadi artımın daha geniş iqtisadi subyektlərlə dəstəklənməsi deməkdir. Elə buna görədir ki, maliyyə inkluzivliyi hazırda bir sıra mərkəzi bankların əsas fəaliyyət hədəflərindən birinə çevrilmişdir.

"Maliyyə inkluzivliyi" bir anlayış olaraq 2000-ci illərdən sonra yayılmağa başlamışdır. Xüsusilə Dünya Bankı ekspertləri tərəfindən bu termin dərindən öyrənilmiş və heç də təsadüfi deyil ki, ötən il ölkələrin maliyyə inkluzivliyi səviyyəsini müəyyən etmək məqsədilə Qlobal Findeks* göstəriciləri hesablanmışdır. Bunun üçün Gallup beynəlxalq sorğu təşkilatı ilə birgə dünyanın 148 ölkəsində 150 mindən çox əmək qabiliyyətli şəxs arasında sorğu aparılmışdır. Sorğu 18 sualdan ibarətdir və suallar cari hesabın olması, kredit kartlarından istifadə, depozit qoyuluşları, kredit götürülməsi, ödənişlərin həyata keçirilməsi və s. ilə əlaqədar məsələləri əhatə edir.

Sorğu nəticələri göstərir ki, hazırda dünyada əmək qabiliyyətli əhalinin yarıya yaxınının maliyyə institutlarından birində cari hesabı var, ötən bir il ərzində maliyyə institutlarına depozit qoyanların nisbəti 22%, kredit götürənlərin nisbəti isə 9% təşkil etmişdir. Amma buna baxmayaraq, dünyada hələ də 2.5 mlrd. nəfərin cari bank hesabı yoxdur. Bütövlükdə dünya üzrə maliyyə xidmətlərindən istifadə səviyyəsi regionlar, əhalinin gəlir, təhsil səviyyəsinə uyğun olaraq dəyişkənlik göstərir. Maliyyə xidmətlərinə çıxış qarşısında əsas maneələr kimi isə yüksək xərc, fiziki uzaqlıq, izafi sənədləşmə və s. qeyd olunur.

Mənbə: Dünya Bankı, "Measuring Financial Inclusion: The global findex database", WP 6025, Aprel 2012
**) Qlobal Findex (Global Financial Inclusion Database) – Qlobal Maliyyə İnkluzivliyi indeksi*

ümumi depozitləri 2,7% artaraq 9704,3 mln. manata çatmış və cəmi öhdəliklərin 77,3%-ni təşkil etmişdir.

Hesabat dövründə əhalinin əmanətləri 6,1% artmış və 4372,6 mln. manata çatmışdır, bankların öhdəliklərində payı isə dövrün sonuna 34,8% təşkil etmişdir.

Cədvəl 2.2. Bankların resurs bazasının strukturu, %-lə

	01.01.2010	01.01.2011	01.01.2012	01.07.2012
Qeyri-maliyyə sektorunun depozitləri	39.7	41.9	46.8	57.3
AMB-nin banklara qarşı tələbləri	6.4	4.8	4.9	6.5
Maliyyə sektorunun tələbləri	8.6	17.2	13.6	19.9
Digər	24.5	18.6	17.7	16.3
Cəmi öhdəliklər	79.2	82.5	83	83.4

Mənbə: AMB

Qrafik 2.1. Depozitlərin strukturu, mln. manat



Mənbə: AMB

2012-ci ilin ötən dövrü ərzində əhalidən cəlb edilmiş əmanətlərin müddət strukturunda müsbət meyillər davam etmişdir.

Qrafik 2.2. Depozitlərin artım tempi, %-lə



Mənbə: AMB

Müddətli əmanətlər 195 mln. manat, tələb edilənədək əmanətlər isə 57,6 mln. manat artmışdır. Müddətli əmanətlərin cəmi əmanətlərdə payı cari ilin iyun ayının sonuna 79,4% olmuşdur.

Qrafik 2.3. Fiziki şəxslərin əmanətlərinin müddəti, %-lə



Mənbə: AMB

Əhalinin bank sisteminə inamının artması nəticəsində uzunmüddətli və milli valyutada əmanətlərinin artması müşahidə olunmuşdur. Hesabat dövrü ərzində uzunmüddətli əmanətlər 8,4% artaraq cəmi əmanətlərin 36,7%-ni (ilin əvvəlinə 35,9%) təşkil etmişdir. 2012-ci ilin birinci yarım ili ərzində milli valyutada əmanətlər 8,7% artaraq 2480,8 mln. manata çatmış və cəmi əmanətlərin 56,7%-ni təşkil etmişdir (2011-ci ilin müvafiq dövründə - 48,5%).

Azərbaycan bank sistemi hesabat dövründə də qeyri-rezident fiziki şəxslər üçün cəlbedici olmuşdur. Belə ki, 2012-ci ilin yanvar-iyun ayları ərzində qeyri-rezident fiziki şəxslər tərəfindən yerləşdirilmiş əmanətlərin həcmi 17,7% artmış (ötən ilin müvafiq dövründə 6,7%) və cəmi əmanətlərin 10%-ni təşkil etmişdir.

Hüquqi şəxslərin depozitlərində artım müşahidə olunur. Hüquqi şəxslərin depozitləri son bir ildə 9,7% artmış və bank öhdəliklərinin 22,5%-ni təşkil etmişdir.

Hüquqi şəxslər tərəfindən yanvar-iyun ayları ərzində banklarda yerləşdirilmiş manatla olan depozitlər 3,1%, xarici valyutada olan depozitlər isə 1,6% azalmışdır.

Cari ilin yanvar-iyun ayları ərzində qeyri-rezident banklardan və beynəlxalq maliyyə təşkilatlarından cəlb edilmiş vəsaitlər 1% artaraq 1873,9 mln. manat səviyyəsinə yüksəlmişdir. Xaricdən cəlb olunmuş vəsaitlərin səviyyəsi məqbul səviyyədə olmuş və cəmi öhdəliklərin 14,9%-ni təşkil etmişdir.

Qrafik 2.4. Xarici borcun dinamikası



Mənbə: AMB

2.3. Bank sisteminin aktivləri

Hesabat dövründə maliyyə xidmətlərindən istifadənin genişlənməsi prosesi davam etmişdir. Kreditləşmə bank xidmətlərinin əsas hissəsi olaraq qalmışdır.

Bank aktivlərinin dəyişimi (cari ilin I yarım ili ərzində artım 6%) əsasən kredit qoyuluşları ilə əlaqədar olmuşdur. Kredit qoyuluşları I yarımillikdə 8,8% artaraq dövrün sonuna 10 556,7 mln. manat təşkil etmişdir. Mərkəzi Bankın apardığı sorğular kreditə tələbin artdığını göstərir ki, bu da qeyri-neft sektorunda iqtisadi aktivliyin yüksəlməsindən irəli gəlir.

Qrafik 2.5. Kredit aktivliyi, sorğu nəticələri*



Mənbə: AMB

Dövr ərzində kredit qoyuluşları uzunmüddətli kreditlər hesabına artmışdır. Belə ki, dövr ərzində qısamüddətli kreditlər 1,5% azaldığı halda, uzunmüddətli kreditlər 13,2% artmışdır. 1 iyul 2012-ci il tarixinə uzunmüddətli kreditlərin kredit portfelinin strukturunda payı 73,3% olmuşdur (1 yanvar 2012-ci il tarixinə 70,5%).

Yarım il ərzində kredit portfelinin valyuta strukturu sabit qalmışdır.

2012-ci ilin I yarımilliyində milli valyutada olan kreditlərin artım tempi (11,5% artım) xarici valyutada kreditlərin artım tempini (3,9% artım) üstələmişdir. Nəticədə manatla kreditlərin

Qrafik 2.6. Kredit portfelinin valyuta strukturu, %-lə



Mənbə: AMB

ümumi portfeldə xüsusi çəkisi 64,7%-dən 66,3%-ə yüksəlmişdir.

Yarım il ərzində banklar tərəfindən hüquqi şəxslərə verilmiş kreditlər 5,3% artmış və dövrün sonuna 6313,4 mln. manat (portfeldə payı 59,8%) təşkil etmişdir. Bununla belə pərakəndə kreditlər daha yüksək və stabil artım tempinə malik olmuşdur.

Qrafik 2.7. Yeni verilmiş kreditlər (rüb ərzində orta aylıq), mln. manat



Mənbə: AMB

Hesabat dövründə ev təsərrüfatlarına verilən kreditlər (banklar üzrə) 15% artmış və dövrün sonuna 3548,2 mln. manat təşkil etmişdir.

İstehlak kreditləri yarım ildə (bütün kredit təşkilatları üzrə) 16,3% artaraq ev təsərrüfatlarına verilmiş kreditlərin 75,8%-ni təşkil etmişdir. Fiziki şəxslərə verilən kreditlərin

* Sorğunun nəticələri "balans metodu" üsulu ilə qiymətləndirilmişdir: "Balans metodu" – suala "artım" ("yumşalma") cavab vermiş respondentlərin ümumi respondentlərin sayında payı ilə "azalma" ("sərtləşmə") qeyd etmiş respondentlərin payı arasındakı fərqdir. Alınmış fərq komponent üzrə hər hansı bir təzahürü xarakterizə edən indeks adlanır və bazis bəndi ilə qiymətləndirilir. İndeksin dəyişmə amplitudası -100 ilə +100 arasındadır.

Qrafik 2.8. Subyektlər üzrə kredit portfelinin strukturunun dinamikası



Mənbə: AMB

Qrafik 2.9. Fiziki şəxslərə kreditlərin məqsəd üzrə strukturu, %-lə



Mənbə: AMB

65%-i avtomobil və daşınmaz əmlakla bağlıdır.

Fiziki şəxslərə daşınmaz əmlakın tikintisi və alınması üçün verilmiş kreditlər birinci yarımillik ərzində 12,8% artmış və 1 iyul 2012-ci il tarixinə 649,3 mln. manat təşkil etmişdir. Bu kreditlərin ev təsərrüfatlarına verilmiş kreditlər portfelində payı dövrün sonuna 17,1% olmuşdur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə verilmiş kreditlər isə 4% artaraq ev təsərrüfatlarına verilmiş kreditlərin 7,1%-ni təşkil etmişdir.

Cari ilin I yarımilliyində fiziki şəxslərə verilən uzunmüddətli kreditlərin (bütün kredit təşkilatları üzrə) cəmi portfeldə payı 2,2 faiz bəndi artaraq portfelin 73,2%-ni (2 783,8 mln. manat) təşkil etmişdir.

Cari ilin 6 ayı ərzində kredit portfelinin sahəvi strukturunda əhəmiyyətli dəyişiklik müşahidə olunmamışdır. Dövrün sonuna portfelin 1/3 hissəsi ev təsərrüfatlarının payına düşmüşdür.

Ticarət və xidmət sektoruna kreditlərin artımı 1,6% olsa da ilin əvvəli ilə müqayisədə bu kreditlərin portfeldə xüsusi çəkisi 2 faiz bəndi azalaraq 27,4%-ə enmişdir. Eyni zamanda kreditlərin həcmi kənd təsərrüfatı və emalı sektoruna 8,2%, nəqliyyat və rabitə sektoruna 0,9%, sənaye və istehsal sektoruna 10,5%, inşaat və əmlak sektoruna 15,2% artmışdır. Plastik kartlarla əməliyyatlar üzrə kreditlərin artımı isə 15,5% olmuşdur.

2012-ci ilin 6 ayı ərzində kredit təşkilatları tərəfindən regionların kreditləşdirilməsi prosesi davam etmişdir. Dövr ərzində regionlara kredit qoyuluşları 10% artmışdır. Regionlara

Cədvəl 2.3. Bankların kredit portfelinin sahələr üzrə strukturu və dinamikası

Sahə	01.07.12		6 ay ərzində artım, %
	mln. manat	Kredit portfelində payı, %	
Ticarət və xidmət	2889.3	27.4	1.6
Ev təsərrüfatlarına	3548.3	33.6	15
Kənd təsərrüfatı və emalı	494.5	4.7	8.2
İnşaat və əmlak	1008.2	9.5	15.2
Sənaye və istehsal	644.3	6.1	10.5
Nəqliyyat və rabitə	413.2	3.9	0.9
Digər	1559	14.8	7.9

Mənbə: AMB

Cədvəl 2.4. Regionlar üzrə (Bakı istisna olmaqla) kreditlər və əmanətlər, mln. manat

Tarix	Kredit qoyuluşu			Əmanətlər		
	Cəmi	Manatla	Xarici valyutada	Cəmi	Manatla	Xarici valyutada
01.01.2011	1262,9	879,6	383,3	223,4	154,3	69,1
01.01.2012	1271,7	940,1	331,5	327,6	242,7	85
01.04.2012	1273.4	972,1	301,3	386,9	270,2	116,7
01.07.2012	1398,7	1075,5	323,2	381,7	287,8	93,9

Mənbə: AMB

milli valyutada verilmiş kreditlər ötən dövrlərdə olduğu kimi xarici valyutada kredit qoyuluşlarını üstələmiş və 1 iyul 2012-ci il tarixə kredit portfelinin 76,9%-ni təşkil etmişdir. Regionlarda kreditlərin böyük hissəsini (66,5%) uzunmüddətli kreditlər təşkil edir.

I yarımillikdə bankların qiymətli kağızlara investisiyaları 5,9% artaraq 1 iyul 2012-ci il tarixinə 1207,1 mln. manata (1 yanvar 2012-ci il tarixinə 1139,3 mln. manat) çatmışdır.

Qrafik 2.10. Bank aktivlərinin strukturu, %-lə



Mənbə: AMB

Hesabat dövründə qiymətli kağızların həcminin artmasına baxmayaraq aktivlərdə onların xüsusi çəkisi ilin əvvəli ilə müqayisədə sabit qalmışdır (8,2%).

2.4. Bank sektorunun fəaliyyətinin maliyyə nəticələri

Dövr ərzində bank sisteminin maliyyə nəticələri ümumilikdə qənaətbəxş olmuşdur.

Cari ilin I yarımilliyində bankların əldə etdikləri mənfəət 19,1 mln. manat təşkil etmişdir. Vergi ödənildikdən sonra xalis mənfəət 10,3 mln. manat olmuşdur. Dövr ərzində mənfəətlə işləyən bankların sayı 35 (01.07.2011-ci il tarixə sayı 33), zərərlə işləyən bankların sayı isə 9 (01.07.2011-ci il tarixə sayı 11) olmuşdur.

Qrafik 2.11. Bank sisteminin mənfəəti, mln. manat



Mənbə: AMB

Dövr ərzində bankların müştərilərə verdiyi kreditlər üzrə faiz gəlirləri 12,4% artmışdır (cəmi 546,9 mln. manat faiz gəliri). Faiz gəlirlərinin orta aktivlərə nisbəti müvafiq dövrlə müqayisədə 0.1 faiz bəndi azalaraq dövrün sonuna 7,6% təşkil etmişdir.

Faiz gəliri gətirən digər əməliyyatlardan (banklararası tələblər, investisiyalar və maliyyə lizinqi) əldə edilən gəlir ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,4% artmış və orta aktivlərə nisbətdə sabit qalaraq 0,6% təşkil etmişdir. I yarımillikdə cəmi faiz gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,2% (64,5 mln. manat) artaraq 1 iyul 2012-ci il tarixə 593,7 mln. manata çatmışdır.

Cari ilin 6 ayı ərzində bankların cəmi qeyri-faiz gəlirləri ötən ilin müvafiq dövrünə nisbətən

Haşiyə 3. Faiz dərəcəsi riskinin idarə edilməsinin əsas prinsipləri

Faiz dərəcəsi riski - faiz dərəcələrinin volatilliyi nəticəsində bankın maliyyə vəziyyətinin dəyişməsidir. Faiz gəlirləri bankların mənfəətinin əsas mənbələrindən biri olduğu üçün faiz dərəcəsi risklərinin monitorinqi və idarə olunması xüsusi əhəmiyyət kəsb edir. Faiz dərəcələrinin dəyişməsi bankın mənfəəti və kapitalına təsir edir. Faiz dərəcələrinin dəyişməsi nəticəsində gələcək pul axınlarının cari qiyməti dəyişərək bank aktivlərinin və öhdəliklərin dəyərinə təsir edir. Faiz dərəcələrinin effektiv idarə edilməsi prosesi bank fəaliyyətinin dayanıqlığı və təhlükəsizliyi üçün zəruridir.

Beynəlxalq Hesablaşmalar Bankının araşdırmalarının nəticələrinə görə, faiz dərəcələrinin idarə edilməsinin əsas prinsipləri aşağıdakılardır:

- Faiz dərəcələri risklərinin idarə edilməsinə dair strategiya və siyasət müəyyən edilməli, risklərin monitorinqi aparılmalı və nəzarət üzrə tədbirlər görülməlidir.
- Bank biznesinin strukturu və faiz dərəcəsi riskinin səviyyəsi effektiv tənzimlənməlidir.
- Faiz dərəcələrinin idarə edilməsi üçün məsul şəxslər müəyyən olunmalı və maraqların toqquşmamağı üçün vəzifə bölgüsü aparılmalıdır.
- Yeni məhsullara xas ola biləcək risklərin üzə çıxarılması və risklərə yol verilməməyi üçün əsas tədbirlərin qabaqcadan müəyyən olunması zəruridir.
- Banklar faiz dərəcələri risklərinin mənbələrini əhatə edən sistemə malik olmalı və faiz dərəcələrinin dəyişməsinin qiymətləndirilməsini həyata keçirməlidir.
- Banklar faiz dərəcəsi risklərinə dair əməliyyat risklərini müəyyən etməlidirlər.
- Stress şəraitində banklar itkilərə qarşı həssaslığı qiymətləndirməli və faiz dərəcəsi üzrə limitlər və siyasətlər müəyyən olunanda bunu nəzərə almalıdırlar.
- Faiz dərəcələri üzrə qiymətləndirmə, monitorinq, nəzarət və hesabatların təqdim olunması üçün adekvat informasiya sistemi mövcud olmalıdır.
- Faiz dərəcələrinin idarə edilməsi üçün banklarda daxili nəzarət (daimi müstəqil nəzarət, sistemin effektivliyinin qiymətləndirilməsi) sistemi olmalıdır.
- Faiz dərəcəsi riskinə və risklərin idarə edilməsi siyasətinə uyğun kapital səviyyəsi müəyyən olunmalıdır.
- Faiz dərəcəsi risklərinin səviyyəsi və onların idarə edilməsi siyasəti üzrə məlumat ictimaiyyətə açıqlanmalıdır.
- Nəzarət orqanları faiz dərəcəsi riskinin səviyyəsini müəyyən etmək üçün banklardan vaxtaşırı və kifayət qədər informasiya almalıdırlar.
- Nəzarət orqanları bankların risklərinin qiymətləndirilməsi üzrə daxili sistem risklərinin qiymətləndirməsini aparmalıdır. Nəzarət orqanları bank hesabatlarının əhatə etdiyi faiz risklərinin qiymətləndirilməsi əsasında daxili risk-menecment sisteminin qiymətləndirməsini aparmalıdır.

Mənbə: Principles for the management and supervision of interest rate risk, July 2004, Bank for International Settlements

15,5% artmış və hesabat dövrünün sonuna 163 mln. manat təşkil etmişdir. Bu, valyuta əməliyyatlarından gələn xalis gəlirlərin və digər xidmət növlərinə görə komissiya gəlirlərinin artması hesabına baş vermişdir.

Bütövlükdə bankların ümumi gəlirləri (faiz və qeyri-faiz) 756,7 mln. manat təşkil etmiş və ötən ilin müvafiq dövründəki səviyyəsindən 12,9% (86,4 mln. manat) çox olmuşdur.

Fiziki şəxslərin müddətli əmanətlərinin həcminin artması ilə əlaqədar cari ilin 6 ayı ərzində faiz xərcləri 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 12,6% artmış və 321,5 mln. manat təşkil etmişdir. Faiz xərclərinin orta aktivlərə nisbəti ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,1 faiz bəndi azalaraq 4,4% olmuşdur.

Qeyri-faiz xərcləri ötən ilin müvafiq dövrü

Cədvəl 2.5. Mənfəətin strukturu, mln. manat

	Yanvar-iyun 2011	Yanvar-iyun 2012	Dəyişmə, %-lə
Faiz gəliri	529.2	593.7	12.2
Faiz xərcləri	285.4	321.5	12.6
Qeyri-faiz gəliri	141.1	163	15.5
Qeyri-faiz xərcləri	243.1	284.9	12.5
Ümumi gəlir	670.3	756.7	17.2
Ümumi xərc	528.5	606.4	14.7
Xalis əməliyyat mənfəəti	141.7	150.3	6.1
Aktivlər üzrə mümkün zərər üçün ehtiyatın yaradılmasına ayırmalar	66.7	132	97.9

Mənbə: AMB

ilə müqayisədə 17,2% artmış və 1 iyul 2012-ci il tarixinə 284,9 mln. manat təşkil etmişdir. Buna səbəb bank sistemində əmək haqqı, digər kompensasiya növləri və bank işində istifadə olunan əsas vəsaitlərlə əlaqədar xərclərin artmasıdır. Qeyri-faiz xərclərinin orta aktivlərə nisbəti ötən ilin müvafiq dövrü ili müqayisədə demək olar ki, dəyişməmiş (+0.1 f.b.) və 3,9% olmuşdur.

2011-ci ilin müvafiq dövrü ilə müqayisədə bankların ümumi xərcləri (faiz və qeyri-faiz) 14,7% (və ya 77,9 mln. manat) artaraq 606,4 mln. manat olmuşdur.

Cari ilin yanvar-iyun aylarında bankların əməliyyat mənfəəti 150,3 mln. manat olmuşdur. Bank aktivlərinin gəlirliliyi (ROA) 0,1%, kapitalın gəlirliliyi (ROE) isə 1,2% təşkil etmişdir.

2.5. Bank sektorunun kapitalı

Hesabat dövründə bank sisteminin kapital bazasının möhkəmlənməsi davam etmiş, sistemin kapital adekvatlığı göstəriciləri məqbul səviyyədə olmuşdur.

2012-ci ilin yanvar-iyun ayları ərzində bank

Cədvəl 2.6. Bank kapitalının strukturu, mln. manat

	01.01.2012	01.07.2012
Nizamnamə kapitalı	1558.9	1932.5
Səhmlərin emissiyasından əlavə vəsait	20.7	20.7
Bölüşdürülməmiş xalis mənfəət (zərər)	-40.7	-130.5
Cari ilin mənfəəti	163.5	109.1
Ümumi ehtiyatlar	159.5	183.4
Kapitalın digər vəsaitləri	151.5	105.1
Məcmu kapital	1886.3	2084.8
Kapitaldan tutulmalar	-127.1	-125.4

Mənbə: AMB

sisteminin məcmu kapitalının həcmi 10,5% və ya 198,5 mln. manat artaraq dövrün sonuna 2084,8 mln. manata çatmışdır. Cari ilin I yarımilliyində məcmu kapitalın artımının əsas mənbəyini nizamnamə kapitalı təşkil etmişdir. Nizamnamə kapitalının məcmu kapitalda payı artaraq 92,7%-a çatmışdır (ilin əvvəlinə 82,6%). Eyni zamanda nizamnamə kapitalı 373,6 mln. manat və ya 24% artmışdır. Ümumi ehtiyatlar 15% (23,9 mln. manat) yüksəlmişdir. Törəmə müəssisələrin və digər kredit təşkilatlarının səhmlərinə (paylarına), qeyri-maddi aktivlərə investisiyalar 105,1 mln. manat səviyyəsində olmuşdur (ötən ilin müvafiq dövründə 152,8 mln. manat təşkil etmişdir).

Bank sektoru üzrə kapital adekvatlığı minimal limiti üstələyərək hesabat dövrünün sonuna 14,2% səviyyəsində olmuşdur.

2012-ci ilin I yarımilliyində I dərəcəli kapital adekvatlığı göstəricisi 11,7%-dən 12,1%-dək yüksələrək, minimal normadan (I dərəcəli kapital adekvatlığı norması 6%) 2 dəfə çox olmuşdur.

Qrafik 2.12. Bank sisteminin kapital göstəriciləri, %-lə



Mənbə: AMB

Haşiyə 4. İnkişaf etmiş ölkələrin bank sistemində leverec səviyyəsinin azaldılması

Maliyyə böhranı başladıqdan sonra banklar leverecin azaldılması zərurəti ilə üzləşmişlər. Bununla bağlı 2011-ci ilin ikinci yarısında Avropa banklarına təzyiq güclənmişdir. Maliyyələşmə kanallarının daralması fonunda 2011-ci ilin dekabr ayında Avropa Mərkəzi Bankının qərarı ilə banklara 3 ilə qədər təminatlı kreditlərin verilməsi proqramına başlanılmışdır. Bu kreditlərin banklara geniş imkanlar yaratmasına baxmayaraq bazar şəraiti qənaətbəxş deyil. Belə ki, bankların kredit riskləri kifayət qədər yüksək olaraq qalır və bir sıra bankların Mərkəzi Bankın kreditlərindən asılılığı davam edir. Belə şəraitdə kapitallaşma tələblərinə riayət etmək üçün banklar kapitalın səviyyəsinin artırılması və kreditləşməni məhdudlaşdıraraq aktivlərin azaldılması zərurəti ilə qarşılaşmışlar.

Avrozona bankları balansların azaldılması məqsədi ilə kreditlərin həcmini azaltmış və aktivlərin bir hissəsini satmışlar. Bir neçə Avropa bankı tərəfindən orta-müddətli biznes planına uyğun olaraq 2 trln. Avro məbləğində aktivlərin azaldılması planlaşdırılır. Qeyd olunan struktur dəyişiklikləri bank sisteminin dayanıqlılığının artırılmasını dəstəkləməlidir. Lakin, Avropa banklarının aktivlərinin əhəmiyyətli azalması nəticəsində iqtisadiyyata və maliyyə sisteminə əks təsir riski də mövcuddur.

Ümumilikdə, leverec səviyyəsinin azaldılması struktur və tsiklik təzyiqlə bağlıdır.

Struktur təzyiqlər:

- Bankların biznes modellərinin təshih edilməsi, korreksiya zərurəti.
- Kapitallaşma səviyyəsinin gücləndirilməsi zərurəti.
- Qeyri-sabit maliyyələşmə mənbələrindən asılılığın azaldılması.

Tsiklik təzyiqlər:

- Suveren borc və bank maliyyələşməsi bazarlarında vəziyyət.
- İqtisadi vəziyyət.

Mənbə: Global Financial Stability Report, April 2012, International Monetary Fund

2012-ci ilin iyun ayının sonuna sistem üzrə leverec əmsalı müəyyən olunmuş minimal normadan yüksək, 10,2% səviyyəsində olmuşdur.

III. BANK SİSTEMİNDƏ RİSKLƏR

Hesabat dövründə bankların likvidlik səviyyəsi kreditorlar və borcalanlar qarşısında öhdəliklərin vaxtında yerinə yetirilməsi üçün kifayət səviyyədə olmuşdur. Preventiv tənzimləmə və banklarda risk-menecment sistemlərinin təkmilləşdirilməsi aktivlərin keyfiyyətinin adekvat səviyyədə saxlanılmasına imkan vermişdir.

Cari ilin yanvar-iyun ayları ərzində bankların likvidliyi məqbul səviyyədə qalmışdır. Kredit aktivliyinin bərpası ilə əlaqədar yüksək likvid aktivlərin həcminin bir qədər azalmasına baxmayaraq likvid aktivlərin ümumi aktivlərə nisbəti minimal səviyyədən (10%) yüksək qalmışdır. Likvid aktivlərin cari öhdəliklərdə payı 59%-dən 47%-ə azalmışdır. Bununla belə, ani likvidlik əmsalı 71%-dən 73%-ə yüksəlmişdir (minimal limit 30%). Yüksək likvid aktivlərin orta günlük qalığı yanvar-iyun ayları ərzində 226,1 mln. man. (11%) artaraq 2275,2 mln. manata çatmışdır.

Qrafik 3.1. Likvidlik göstəricilərinin dinamikası, %-lə



Mənbə: AMB

1 iyul 2012-ci il tarixinə yüksək likvid aktivlərin strukturunda nağd vəsaitlər, nostro hesablar və dövlət qiymətli kağızların payı müvafiq olaraq 30%, 26% və 19% olmuşdur. Bankların Mərkəzi Bankda hesablarının likvid aktivlərdə xüsusi çəkisi dövrün sonuna 25% təşkil etmişdir.

Qrafik 3.2. Likvid aktivlərin strukturu, %-lə



Mənbə: AMB

2012-ci ilin I rübü ərzində bankların müddət üzrə aktiv və passivləri arasında fərq məqbul səviyyədə olmuşdur.

Qrafik 3.3. Aktiv və passivlər arasında fərqin aktivlərə nisbəti, %-lə



Mənbə: AMB

Məzənnə risklərinin təsirinin idarə edilməsi məqsədilə aktiv və passivlərin valyuta strukturu balanslaşdırılmışdır. Son bir il ərzində xarici valyutada olan aktivlərin cəmi aktivlərdə xüsusi çəkisi 43,6%-dən 38,7%-dək enmiş, xarici valyutada öhdəliklərin cəmi öhdəliklərdə

Haşiyə 5. Əmlak bazarında qiymətlər və maliyyə sabitliyi

Makroiqtisadi vəziyyət əmlak bazarında qiymətlərə təsir edir. Belə ki, iqtisadi artım dövründə ev təsərrüfatlarının və korporativ sektorun mənfəətliyi, ümumilikdə tələbi artırır ki, bu da daşınmaz əmlak bazarında qiymət artımını stimullaşdırır.

Ev təsərrüfatlarının istehlak səviyyəsi gəlirlər əsasında müəyyən olunur. Daşınmaz əmlak bazarında qiymətlərin artması zənginlik effektini yaradır və istehlakın artmasına səbəb olur.

Daşınmaz əmlak iqtisadiyyatda mühüm investisiya aktividir. Əmlak bazarında qiymətin artması tikinti və onunla bağlı sahələrin inkişafını stimullaşdırır. Müvafiq olaraq mənfəətlik, məşğulluq və tələbat artır. Qiymət dəyişməsi alıcıların və satıcıların davranışına təsir edir.

Əmlak bazarında qiymətlər və məcmu tələb arasında əlaqəni nəzərə alaraq monetar siyasət orqanları qiymətlərin monitorinqini zəruri hesab edirlər. Qiymət sabitliyinin təmin edilməsi və müvafiq siyasətlərin hazırlanması üçün əmlak bazarında qiymətlərin dəyişməsinin səbəblərinin müəyyən edilməsi zəruridir.

Bank kreditləri əmlak bazarının əsas maliyyələşmə mənbələrindən biridir. Banklar kredit verərkən bir çox hallarda daşınmaz əmlakı girov götürürlər. Ona görə də əmlak bazarında qiymətlərin enməsi təminatın dəyərini azaldaraq bank aktivlərinin pisləşməsinə səbəb ola bilər. Bu halda bankın mənfəətliyi azalır və yeni kreditlərin verilməsi məhdudlaşır. Daşınmaz əmlak tikinti və onunla bağlı olan kreditlər ilə yanaşı digər növ kreditlər üçün də təminat ola bilər. Qiymətlərin enməsi nəticəsində bu sahədə olan mənfəətlik azalır və nəticədə borcalanların öz öhdəliklərini yerinə yetirmək imkanı çətinləşir. Digər tərəfdən, bank kreditlərinin artması tələb və təklif arasında balansa təsir edərək qiymətlərin dəyişməsinə səbəb ola bilər.

Əmlak bazarında qiymət dəyişməsinin rolunun mühüm olmasını nəzərə alaraq banklar bu dəyişmənin onların balanslarına təsirini düzgün qiymətləndirməlidirlər. Banklar əmlak bazarında qiymət dəyişməsinin mühüm əhəmiyyət daşımasını nəzərə almalı və bu dəyişmənin onların balanslarına təsirini düzgün qiymətləndirməlidirlər.

Mənbə: Real estate indicators and financial stability, April 2005, Bank for International Settlements

xüsusi çəkisi isə 53,7%-dən 46,9%-dək azalmışdır.

2012-ci ilin 6 ayı ərzində kredit portfelinin keyfiyyəti məqbul səviyyədə olmuşdur. Vaxtı keçmiş kreditlərin cəmi kreditlərdə xüsusi çəkisi dövrün sonuna 6,5% təşkil etmişdir.

Ümumilikdə, Mərkəzi Bank müntəzəm həyata keçirdiyi stress-testlər onu göstərir ki, Azərbaycanın bank sistemi kəskin makroiqtisadi şoklara qarşı dayanıqlı vəziyyətdədir.

Haşiyə 6. Makro stress-testləşdirmədə olan son trendlər

On il bundan öncə Beynəlxalq Valyuta Fondu makro-stress testləşdirməni Maliyyə Sabitliyinin Qiymətləndirilməsi Proqramının tərkib hissəsi kimi istifadə etməyə başladı. İqtisadiyyatda mövcud olan zəif cəhətləri qiymətləndirən bu metod qısa bir zaman ərzində bir çox mərkəzi banklar arasında populyarlaşdı. İlkin stress-test modelləri (Bunn et al, (2005) sadə olmuş və makro səviyyədə məcmu gəlirlə itkilər arasında əlaqənin tarazlaşdırılmasına əsaslanmışdır. Lakin, daha təkmil təhlil və qiymətləndirmə üsullarının (Segoviano and Padilla (2006)) tətbiqi nəticəsində daha etibarlı qiymətləndirmənin aparılması imkanı yarandı.

Elsinger et al (2006) Avstriya bank sistemi üçün bazar, kredit, faiz və banklararası kredit riskini əhatə edən model işləyib hazırlamışdır. Bununla o, kredit reyestrinin bütün məlumatlarından istifadə edərək balansın riskliliyini daha geniş əhatə edə bildi. Model bütün maliyyə sektoru və ya bir qrup banklar üzrə itkilərin paylanması VAR (value-at-risk) qiymətləndirilməsi əsasında qurulub. Eyni zamanda model bank sistemində yoluxma riskini (bir bankın defoltunun digər banklara yayılması) izləməyə imkan verir. Digər bir model Drehmann et al (2010) modelidir ki, bu da balansın hər bir maddəsinin balanslaşdırılmasını təmin edir.

Daha geniş əhatəli yanaşma İngiltərə Bankı (Bank of England) tərəfindən işlənilmiş RAMSİ modelidir. Drehmann et al (2010) modelini standart blok kimi istifadə edən yanaşmanın əsas məqsədi bütün əhəmiyyətli əks əlaqələr mexanizmlərini daxil etməklə aparıcı kanalların modelləşdirilməsidir. Bu metod banklararası bazarda mövcud olan kredit riskini nəzərə alır, habelə bazar və likvidlik riskindən irəli gələn kanallarla əks əlaqənin qurulmasına imkan verir.

Makroiqtisadi əks əlaqə Jacobsonun tədqiqatlarında da əks olunmuşdur. Onlar 3 standart moduldan ibarətdir: i) maliyyə sabitliyini qiymətləndirən ölçü vahidi kimi şirkətlərin defoltlarının orta tezliyi modulu; ii) şirkətlərdə baş verən defoltlarla makro və balans hesabatına məxsus spesifik faktorları əlaqələndirən modulu; iii) balans hesabatının makro göstəricilərdən asılı olaraq dəyişməsini izləyən modulu.

Stress-test sahəsində son dövrdə olan ən böyük irəliləyiş likvidlik riskinin qiymətləndirilməsi ilə bağlıdır. Oxşar yanaşma Barnhill və Schumacher (2011) tərəfindən işlənilmişdir. Bu yanaşmaya əsasən son dövrlərdə baş vermiş böhranlar zamanı ödəniş qabiliyyətlilik və likvidlik arasında əlaqə kalibrasiya edilmişdir. Van den End (2008) digər strategiya - bütün riskləri eyni zamanda əhatə edən model əvəzinə likvidlik riski üzərində fokuslaşan model işləmişdir. Holland bank sisteminə nəzər yetirdikdə o müəyyən etmişdir ki, bir bankda meydana gələn stress tez bir zamanda bütün sistemə yayıla bilər.

Mənbə: European Banking Authority 2011, "2011 EU- Wide Stress-Testing"

Kapital yetərliyi dayanıqlı səviyyədə qalmaqdadır. Bununla yanaşı bazar və likvidlik risklərinin yaxşılaşması müşahidə olunur. Kredit riskləri idarə olunan səviyyədədir.

IV. ÖDƏNİŞ SİSTEMLƏRİ

Hesabat dövründə ödəniş sistemləri sabit və fasiləsiz fəaliyyət göstərmişlər. Ölkədəki iqtisadi aktivliyə adekvat olaraq Milli Ödəniş Sistemində aparılan əməliyyatların həcmi və sayı artmışdır.

2012-ci ilin I yarımili ərzində Milli Ödəniş Sistemində ümumi həcmi 55,381 mln. manat olmaqla 12,209 mln. ədəd əməliyyat aparılmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əməliyyatların sayı 57,8% (4472 min ədəd), ümumi həcmi isə 23.6% (10 566 mln. manat) artmışdır.

Hesabat dövründə ödənişlərin orta günlük sayı 92,5 min ədəd, ümumi həcmi isə 419,6 mln. manat təşkil etmişdir (ötən ilin eyni dövründə müvafiq olaraq 58,6 min ədəd və 339,5 mln. manat).

Nağdsız ödənişlərin 91,1%-i AZİPS sistemi vasitəsilə həyata keçirilmiş və onun ümumi həcmi 50 477 mln. manat olmuşdur (217 min ədəd əməliyyat). Ötən ilin eyni dövrü ilə müqayisədə əməliyyatların ümumi həcmi 27,6% (47 000 mln. manat) artmışdır. Hər bir ödəniş sənədinin məbləği orta hesabla 240,8 min manat təşkil etmişdir.

Plastik kartların sayı il ərzində (dövrü dəqiqləşdirilməli) 80 min ədəd artaraq 4,7 mln. ədədə çatmışdır ki, bu da hər min nəfərə (yetkinlik yaşına çatmış) orta hesabla 776,7 ödəniş kartı deməkdir.

İnternet vasitəsilə bank xidmətlərindən istifadə də genişlənməkdədir. Belə ki, dövr ərzində internet-bankinq vasitəsilə 1,3 mln. manat məbləğində 6,6 min əməliyyat həyata keçirilmişdir.

Məbləğ baxımından ödənişlərin 8,6%-i (4,9 mln. manat) XÖHKS sistemi vasitəsilə həyata keçirilmişdir. Say baxımından isə XÖHKS sisteminin payı 98,2% təşkil etmiş və hesabat dövrünün yekunu üzrə 11,992 mln. ədəd ödəniş olmuşdur. Bu da ötən ili həcm etibarilə 54,7% (1 733 mln. manat) və say etibarilə 58,5% (4 425 min ədəd) üstələmişdir. Hər bir ödənişin məbləği orta hesabla 411,3 manat təşkil etmişdir.

Kommersiya bankları plastik kartlarının xidmət edilməsinə dair infrastrukturun inkişafını davam etdirmişlər. 2012-ci ilin I yarısının sonuna bank plastik kartlarına ölkə ərazisində yerləşdirilmiş 2 227 bankomatda və 36 310 pos-terminalda xidmət edilmişdir. Qeyd edək ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkə ərazisində pos-terminalların sayı 3,4 dəfə artmışdır.

Qrafik 4.1. Milli Ödəniş Sistemində ödəniş əməliyyatlarının dinamikası



Mənbə: AMB

Qrafik 4.2. Quraşdırılmış bankomatların və POS-terminalların sayı



Mənbə: AMB

2012-ci ilin 6 ayında bankomatlar vasitəsilə 3 565 mln. manat həcmində 23 403 mln. əməliyyat aparılmışdır. POS-terminallar vasitəsilə aparılan əməliyyatların sayı 1 988 min ədəd, həcmi isə 234 mln. manat təşkil etmişdir.

Plastik kartların sayı il ərzində 245,5 min ədəd artaraq 4,8 mln. ədədə çatmışdır ki, bu da hər min nəfərə (yetkinlik yaşına çatmış) orta hesabla 804,3 ödəniş kartı deməkdir.

İnternet vasitəsilə bank xidmətlərindən istifadə də genişlənməkdədir. Belə ki, dövr ərzində internet-banking vasitəsilə 2.7 mln. manat məbləğində 13,3 min əməliyyat həyata keçirilmişdir.

İstifadə olunmuş qrafik və cədvəllər

Qrafiklər

Qrafik 1.1. Sənaye istehsalı 5
Qrafik 1.2. İyun ayında İşgüzar Aktivlik İndeksi və ilin əvvəlindən dəyişmə 5
Qrafik 1.3. ABŞ-da sənaye istehsalı və işsizliyin dinamikası 6
Qrafik 1.4. Avrozonada sənaye istehsalı və pərakəndə ticarət dövriyyəsinin dinamikası 6
Qrafik 1.5. Əmtəə bazarlarının dinamikası 7
Qrafik 1.6. 10 illik dövlət borc öhdəliklərinin gəlirliliyi 7
Qrafik 1.7. Fond indekslərinin dinamikası 7
Qrafik 1.8. Yanvar-iyun aylarında iqtisadi artım 10
Qrafik 2.1. Depozitlərin strukturu 13
Qrafik 2.2. Depozitlərin artım tempi 13
Qrafik 2.3. Fiziki şəxslərin əmanətlərinin müddəti 13
Qrafik 2.4. Xarici borcun dinamikası 13
Qrafik 2.5. Kredit aktivliyi, sorğu nəticələri 14
Qrafik 2.6. Kredit portfelinin valyuta strukturu 14
Qrafik 2.7. Yeni verilmiş kreditlər 14
Qrafik 2.8. Subyektlər üzrə kredit portfelinin strukturunun dinamikası 15
Qrafik 2.9. Fiziki şəxslərə kreditlərin məqsəd üzrə strukturu 15
Qrafik 2.10. Bank aktivlərinin strukturu 16
Qrafik 2.11. Bank sisteminin mənfəəti 16
Qrafik 2.12. Bank sisteminin kapital göstəriciləri 19
Qrafik 3.1. Likvidlik göstəricilərinin dinamikası 21
Qrafik 3.2. Likvid aktivlərin strukturu 21
Qrafik 3.3. Aktiv və passivlər arasında fərqin aktivlərə nisbəti 21
Qrafik 4.1. Milli Ödəniş Sistemində ödəniş əməliyyatlarının dinamikası 24
Qrafik 4.2. Quraşdırılmış bankomatların və POS-terminalların sayı 24

Cədvəllər

Cədvəl 2.1. Bank sisteminin əsas göstəricilərinin artım tempi 11

Cədvəl 2.2. Bankların resurs bazasının strukturu 12

Cədvəl 2.3. Bankların kredit portfelinin sahələr üzrə strukturu və dinamikası 15

Cədvəl 2.4. Regionlar üzrə (Bakı istisna olmaqla) kreditlər və əmanətlər 16

Cədvəl 2.5. Mənfəətin strukturu 18

Cədvəl 2.6. Bank kapitalının strukturu 18

Azərbaycan Respublıkasının Mərkəzi Bankı
Azərbaycan, Bakı, AZ1014, R. Behbudov küç., 32
Telefon (994 12) 493 11 22
Faks (994 12) 493 55 41
www.cbar.az